Kredo .- 2022.- 20 may.- S.16.

# SƏHƏND HAQQINDA QİYMƏTLİ MONOQRAFİYA



*BABA BABAYEV,*
*filologiya elmləri doktoru*

Bulud Qaraçurlu Səhənd XX əsrin ortalarında Cənubi Azərbaycanda yaşayıb-yaratmış, anadilli ədəbiyyatın formalaşmasında böyük xidmətlər göstərmişdir. Onun ədəbi və ictimai-siyasi fəaliyyəti Azərbaycan türklərinin İrandakı milli azadlıq hərəkatı ilə bağlı olmuşdur. Şair Pəhləvi üsuldarəsinə qarşı qələmi və silahı ilə fədai əsgər kimi mübarizə aparmışdır. Əbəs yerə deyil ki, dünya müsəlmanlarının, Türk dünyasının sevə-sevə oxuduğu Məhəmmədhüseyn Şəhriyar poetik istedadlı, faciəvi taleyi olan Səhənd haqqında aforizmə çevrilmiş qiymətli fikirlər söyləmişdir. Ustad Şəhriyar yazır: "Əgər "Heydərbaba"da demişəm: "Heydərbaba mərd oğullar doğgunan", Səhənd həmən mərd oğuldur ki, illər boyu dalınca dolanmışam. Ancaq deməliyəm ki, Səhənd ayrı bir insandır. Səhənd dağının əzəməti, başının ucalığı və ətəyinin enlənməsi Səhəndin vücudunda toplanmışdır".

Fikrət Süleymanoğlunun belə bir ədəbi şəxsiyyətin yaradıcılığına müraciət etməsini təbii sayırıq. Bu, eyni zamanda ədəbiyyatşünaslıqda sənətkarın elmi pasportuna yeni bir qayıdışdır. Monoqrafiyanın ümumi səciyyəsində mövzunun aktuallığı, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, metodologiyası, elmi yeniliyi, kitabın nəzəri və təcrübi əhəmiyyəti özünə yer almışdır.

Monoqrafiyanın birinci fəslində Səhəndin "Həyatı və mühiti"ndən bəhs olunur. Bu fəsil iki paraqrafdan ibarətdir. "İctimai-siyasi və ədəbi-mədəni mühitinə ümumi bir nəzər" adlı paraqrafda müəllif Səhəndin bir şəxsiyyət və şair kimi formalaşdığı ictimai-siyasi və ədəb-mədəni mühiti canlandırmışdır.

Səhəndin doğulub boya-başa çatdığı 1926-1946-cı illərdə İranda, o cümlədən Cənubu Azərbaycanda baş verən ictimai-siyasi proseslər, şovinist Pəhləvi rejiminin assimilyasiya siyasəti, ölkənin fərqli etnik toplumlarına, xüsusən, Azərbaycan türklərinin ana dilindən istifadə hüququna qarşı basqılarının səbəb və nəticələri konkret faktlar əsasında nəzərdən keçirilimişdir.

Müəllif çalışmışdır ki, Səhəndin formalaşdığı ictimai-siyasi, ədəbi və mədəni mühit obyektiv (1926-1946-cı illəri) xarakterizə edilsin. Bu baxımdan onun Rza şah dönəmində İranda yaşayan qeyri-fars etnosların, xüsusilə, daha böyük mədəni və ədəbi irsə sahib olan Azərbaycan türklərinin tarixindəki qaranlıq səhifələr, onların hüquqları, o cümlədən, ana dilində təhsil, mətbuat və yazışma hüququndan məhrum edilməsi, ana dilində ədəbiyyata dəyən zərbələr, az-çox aşıq sənəti və mərsiyəçilik sahəsində qalan mövcud şəraiti diqqətdə saxlaması əsaslı görünür. 1941-ci ildə Rza şah taxtdan salındıqdan sonra, Təbrizdə Milli Hökumətin fəaliyyətə başlaması ilə Azərbaycan türkləri sahib olmadıqları hüquqlara, yiyələnmişdir ki, bu da ədəbiyyat və mədəniyyətin sürətli inkişafına zəmin yaratmışdır. Monoqrafiya faktoloji cəhətdən də maraq doğurur.

"Həyatının və ədəbi yaradıcılığının əsas mərhələləri" adlı birinci fəslin ikinci paraqrafında şairin həyatına (1926-1979) aid vacib faktlar dəqiqləşdirilmiş və sistemləşdirilmişdir. Burada Səhəndin vətənpərvər və yenilikçi şair kimi formalaşmasına təsir göstərən amillər, ictimai-siyasi görüşləri, gizli ədəbi məclislərin fəaliyyəti, rejimə qarşı dirənişləri, çəkdiyi məşəqqətlər, eləcə də Sovet Azərbaycanının ziyalıları ilə gizli əlaqələri, Cənubi Azərbaycan poeziyasının forma və məzmun cəhətdən zənginləşməsində rolu, poeziyasının konkret mərhələləri araşdırılmışdır.




Kitabın ikinci fəslində şairin irsi "Ədəbi yaradıcılığı" başlığı altında təhlilə cəlb edilmişdir. Burada onun "İctimai-siyasi lirikası" və "Məhəbbət lirikası"ndan bəhs olunur. Bu bölmədə müəllif aydınlaşdırmışdır ki, Səhənd Cənubi Azərbaycanın ən siyasiləşmiş şairlərindən olmuşdur. Onun 34 illik poetik irsinin əsasını demokratik sol dəyərləri təbliğ və tərənnüm edən kəskin ictimai-siyasi motivli əsərlər təşkil etmişdir. Buna görə də o, Cənubda siyasi lirikanın başçılarından biri kimi qəbul olunmuşdur. Səhənd rejimə qarşı mübarizəsini daha çox ədəbiyyat cəbhəsində aparmışdır. Ona görə də bu fəsildə şairin siyasi məzmunlu şeirləri: "Fədailər marşı", "Düşünmək", "Şallaq", "Taleyimə sən bax", "Bir məzar boyunda yer sorağında", "Axır süjə" və başqaları təhlil predmeti kimi götürülmüşdür.

"Məhəbbət lirikası"nda müəllif bildirir ki, Səhəndin indiyədək nəşr olunmuş məhəbbət şeirləri çox olmasa da onun azsayl qoşmaları, rübailəri və bayatıları deməyə əsas verir ki, Səhənd incə və kövrək ruhlu sənətkar olmuş, ustad Şəhriyar demişkən "söz deyəndə gülü, püstəni, qəndi" bir-birinə məharətlə qatdığını nümayiş etdirmişdir.

Fikrət müəllim Səhəndin daxili aləminin zəngin, hiss və həyəcanlarının səmimi olduğunu göstərmiş, professor Yavuz Akpınarın "Zatən Səhənd fərdi hisslərini, romantik həyəcanlarını şeirə tökməyə vaxtı olmayan xalqının dərdləriylə, arzularıyla dolup-daşan bir şairdir" fikrinə haqq qazandırmış, bəz tədqiqatçılardan faktlar gətirməklə mühakimələrini tutumlu etmişdir. Bu baxımdan da müəllifin fikir, düşüncə və qənaətləri bizdə məmnunluq doğurur.

Monoqrafiyada Səhəndin epik əsərlərinin tədqiqinə də yer verilmişdir. Müəllif bildirir ki, Cənubi Azərbaycan ədəbiyyatında daha çox poema yazan şair Səhənd olmuşdur. O, dramatik özəkli poemalara meyil etmiş, ictimai-siyasi və fəlsəfi fikirlərin, hüquqi və mənəvi dəyərlərin, mübarizlik ruhunun ifadəsi üçün poema janrını əsaslı bilmişdir. Müəllifin bu faktı XX əsrin ortalarında Şimali Azərbaycanda poema janrının canlanması və Səməd Vurğun yaradıcılığı ilə bağlı izah və şərh edilməsi də nəzəri cəhətdən obyektiv qiymətləndirmədir.

Şairin 1949-1952-ci illərdə məhbəsdə qələmə aldığı "Xatirə" və "Araz", habelə,1960-cı illərin ortalarında qələmə aldığ "Fərhad" poeması ilk dəfə bu monoqrafiyada tədqiqata cəlb edilmiş, "Dədəmin kitabı" adlı poemalar silsiləsi isə tarixi və sənətkarlıq baxımından təhlil olunmuşdur. F.Süleymanoğlu Səhənd yaradıcılığının zirvəsinin düzgün olaraq "Dədəmin kitabı" poemalar silsiləsi olduğu qənaətindədir. Bildirilir ki, o zaman Azərbaycan KP MK-nın birinci katibi M.C.Bağırov (1896-1956) Kremlin diktəsi ilə eposun nəşri və təbliğini qadağan etməsinə baxmayaraq, mübariz şair o illərdə hakim dairələrin təhlükəli siyasi basqılarından çəkinməmiş, xalqının tarixini, etnoqrafiyasını, onun həyat tərzi və məişətini, qəhrəmanlığını və mənəvi-əxlaqi dəyərlərini ifadə etmiş, "Dədəmin kitabı" adlı qiymətl poemasını oxucularına çatdırmışdır.

Kitabın üçüncü fəsli "Əsərlərinin nəşr və tədqiqi" adlanır. Burada tədqiqaçıların son 50 ildə elmi ictimaiyyətə təqdim etdikləri əsərlər müqayisəli şəkildə incələnmiş, onların müsbət və mənfi cəhətlərinə qiymət verilmişdir. Fikrət Süleymanoğlu göstərmişdir ki, Səhəndin həyat və yaradıcılığı ilə bağlı kitablarda, jurnal və qəzetlərdə, eləcə də İnternet saytlarında xeyli məqalə və elmi araşdırma ifadəsini tapmış, bütün bunların analizləri aparılmış, konkret müddəalar əldə olunmuşdur.

Şairin "Əsərlərinin nəşri tarixindən" adl üçüncü paraqrafda Səhəndin sağlığında və ölümündən sonra işıq üzü görmüş əsərlərinin nəşri məsələləri araşdırılıb qiymətləndirilmişdir. Fədakar şair haqqında xalq yazıçısı, akademik Mirzə İbrahimov yazırdı: "Səhənd müasir Cənubi Azərbaycan şeirinin görkəmli, parlaq, istedadlı və cəsur yaradıcılarından idi". Doğrudan da Səhəndin Cənubi Azərbaycanda milli düşüncənin və anadilli poeziyanın inkişafında əvəzsiz xidmətləri olmuşdur.

*2022*